# AZƏRBAYCAN RESPUBLIKASI

# AUDİTORLAR PALATASI SƏDRİNİN

# SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/65** **20 sentyabr 2018-ci il**

**Auditdə innovasiyaların tətbiqi sahəsində xarici təcrübənin öyrənilməsi və həyata keçirilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin Auditorlar Palatasının qarşısında qoyduğu mühüm bir vəzifə kimi yeni dövrün çağırışlarını nəzərə alaraq, iqtisadi islahatların indiki mərhələsində audit sistemini yenidən qurmaq, iqtisadi hesabatlılıq və şəffaflıq sahəsində yeni innovativ metodların tətbiqi zərurətini qeyd edərək **qərara alıram:**

1. Auditdə innovasiyaların tətbiqi idarəsinə (E.İbrahimov) tapşırılsın ki, 2018-ci ilin sonunadək, audit sahəsində innovasiyaların tətbiqinə dair müasir xarici təcrübənin öyrənilməsini və buna dair tövsiyələrin təqdim edilməsini təmin etsin.

2. Auditdə innovasiyaların tətbiqi idarəsinə (E.İbrahimov) tapşırılsın ki, bir ay müddətində Auditorlar Palatasının 2019-cu il üzrə iş planına daxil edilməsi üçün təkliflərini hazırlayıb təqdim etsin.

**Palatanın sədri** **Vahid Novruzov**